Qərb Universitetinin Elmi Şurasının
__________ tarixli, _________ N-li
protokoluna əsasən rektorun əmri ilə
təsdiq edilmişdir

# QƏRB UNİVERSİTETİ
# Tyutor Xidməti Mərkəzinin
# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Qərb Universitetinin Tyutor (akademik məsləhətçilər) Xidməti Mərkəzinin (bundan sonra Mərkəz) statusu, fəaliyyəti və idarəetməsi AR – nın təhsil qanunvericiliyi, ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi, "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları", Universitetin Nizamnaməsi və bu Əsasnamə ilə müəyyən edilir.

1.2. Mərkəz fəaliyyəti zamanı Azərbaycan Respublikasının qanunlarını, o cümlədən, "Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu"nu, təhsillə bağlı qanunvericilik aktlarını, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmr, sərəncam və göstərişlərini, Qərb Unversitetinin Elmi Şurasının qərarlarını, Universitet rəhbərliyinin əmr və göstərişlərini, tədris və təhsilin son nailiyyətlərini, bu sahədə beynəlxalq təcrübəni, həmçinin təhsilə dair əmək qanunvericiliyinin tələblərini əsas götürür.

1.3. Mərkəzin fəaliyyəti Qərb Universitetinin Tədris işləri üzrə Prorektorunun rəhbərliyi altında həyata keçirilir.

1.4. Mərkəzin vəzifələri onun üzvləri olan tyutorlar (akademik məsləhətçilər) tərəfindən həyata keçirilir.

1.5. Tyutor (akademik məsləhətçi) – ali təhsil müəssisələrində tədris məsləhətçisidir.

1.6. Mərkəzin vəzifələrini həyata keçirən tyutorların sayı Universitetdə təhsil alan tələblərin sayına uyğun olaraq müəyyənləşdirilir.

1.7. Tyutorlar ən azı magistr dərəcəsi və bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan şəxslərdən seçilir.

1.8. Tyutor bu vəzifəyə Tədris işləri üzrə Prorektorun təqdimatı əsasında rektorun əmri ilə təyin edilir.

1.9. Mərkəz Universitetin bütün fakültələri, kürsüləri, digər struktur bölmələri ilə əlaqəli fəaliyyət göstərir.

## 2. Mərkəzin vəzifələri

Kredit sistemi ilə təhsil alan tələbələrə kömək göstərmək məqsədi ilə yaradılmış Mərkəz Universitetin müstəqil, bütün qurumlarla qarşılıqlı şəkildə fəaliyyət göstərən struktur bölməsidir. Mərkəzin vəzifələrinə aiddir:

- Tələbələrin hüquqlarını və akademik maraqlarını qorumaq;
- Tələbələri "Kredit sistemi" ilə bağlı maarifləndirmək və universitetin tədris prosesi ilə tanış etmək;
- Tədris prosesinin təşkili ilə bağlı bütün zəruri məlumatları və sənədləri tələbələrə təqdim etmək;
- Tələbələrin fərdi və işçi tədris planlarının tərtibi üçün onlara məsləhətlər vermək;
- Tələbələrin fərdi tədris planlarının qəbulunda və ixtisaslar üzrə illik işçi tədris planlarının tərtibində iştirak etmək;
- Tələbələrə fərdi tədris planlarında dəyişikliklər aparmasına kömək etmək;
- Tələbələrin mobilliyinin təmin olunmasına köməklik göstərmək;
- Tələbələri məlumatlandırma prosesini həyata keçirmək məqsədilə fənn jurnallarında tələbələrin əsas göstəricilərinə (davamiyyət və fəallıq balları, kollokvium qiymətləri və s.) nəzarət;
- Yay semestrinin təşkilində iştirak etmək;
- Zəruri hallarda tələbələrin akademik göstəriciləri ilə bağlı onların valideynlərini məlumatlandırmaq;
- Tələbələrə təhsil ödənişlərində güzəşt üçün formalaşdırılmış "Güzəşt komissiyası"na yazılan ərizələrinin qeydiyyata alınması və təqdim etdikləri sənədlərin yoxlanılması.

## 3. Mərkəzin hüquqları

Mərkəz öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

- Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində universitetin fakültələrinə, kürsülərinə və digər struktur bölmələrə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları (sənədləri) almaq;
- Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq;
- Fəaliyyət istiqamətləri üzrə iclaslar, seminarlar təşkil etmək, məsləhət yönümlü vəsaitlər hazırlamaq və nəşr etdirmək;
- Beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək, təcrübə və kadr hazırlığı mübadiləsi aparmaq, müvafiq layihələrin həyata keçirilməsində iştirak etmək;
- Avropa təhsil standartlarına inteqrasiya şəraitində universitetin fəaliyyət istiqamətlərinə uyğun digər dövlətlərin qabaqcıl təcrübəsini öyrənmək, onun tətbiqi sahəsində fəaliyyəti həyata keçirmək və bu istiqamətdə universitet rəhbərliyinə təkliflər vermək;
- Fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 4. Mərkəzin məsuliyyəti

4.1. Mərkəz fəaliyyətinin nəticəsinə görə Universitetin normativ sənədləri ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

4.2. Mərkəz öz fəaliyyətinin nəticəsi üzrə imtahan sessiyalarının sonunda aralıq, tədris ilinin sonunda isə yekun hesabatı Universitet rəhbərliyinə təqdim edir.